# Oqtay Güləliyev



**Birinci Qarabağ müharibəsində Vətən torpaqlarının bütövlüyü uğrunda düşmənlə üzbəüz mövqedə şücaətlə döyüşərək ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etməkdən çəkinməyən minlərlə Vətən övladı şəhidlik zirvəsinə yüksəlib.**

Respublikamızın bütün bölgələrindən fədakar və vətənpərvər eloğulları Ana Vətənimizin və işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda özlərini odun-alovun içinə ataraq qəhrəmanlıq göstərmişlər. Belə ki, qəlbimizdə kök salmış, yaddaşlarımızda iz qoymuş layiqli Vətən oğullarından biri, Azərbaycanın Milli Qəhrəmanı Oqtay Güləli oğlu Güləliyev 1962-ci il noyabr ayının 10-da Laçın rayonunun Xaçımyalı kəndində doğulmuşdur. 1979-cu ildə orta məktəbi bitirmişdir. 1982-ci ildə O.Güləliyev hərbi xidmətə çağırılmış və ordudan tərxis olunduqdan sonra, 1984-cü ildə Poltava Kooperativ İnstitutunun Bakı filialına daxil olmuş, 1989-cu ildə institutun iqtisadiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

Oqtay əvvəlcə Laçın Rayon Daxili İşlər Şöbəsində pasport bölməsinə baş inspektor, sonra isə polis bölüyünün komandiri təyin olunur. Bu zaman erməni quldurlarının torpaqlarımıza silahlı basqınları intensiv xarakter almışdı. Əhalinin təhlükəsizliyinin təmin edilməsində Oqtay böyük fədakarlıq göstərirdi. Uğursuzluqla sona çatan "Daşaltı əməliyyatı" zamanı onun bölüyü mühasirəyə düşən 80 nəfər əsgərimizi təhlükəsiz zonaya çıxarmağa müvəffəq olmuşdu.

O.Güləliyev Pircahan kəndi yaxınlığında gedən ağır döyüşlərdən birində yaralanır bir müddət hərbi hospitalda müalicə olunur və yenidən cəbhəyə, öz bölüyünə qayıdır.

1992-ci il sentyabr ayının 19-da Oqtay Güləliyev Laçın dəhlizini tutmaq üçün əməliyyat planı hazırlayır. Onlar əvvəlcə Hocaz kəndini, sonra isə Nərgiz yüksəkliyini ələ keçirməli idilər. Düşmənin qüvvəsi çox üstün idi. Bölük üzərinə düşən vəzifəni, çətinliklə də olsa, yerinə yetirir. Düşmənin xeyli canlı qüvvəsi və texnikası məhv edilir. Bu, Gorus-Şuşa yoluna açılmış dəhlizə tam nəzarət demək idi.

Oqtayın bölüyü düşməni çaşbaş salaraq Sus kəndinə enir, oradan isə Qızılca kəndinə qalxır. Bu zaman onlar arxadan atəşə tutulurlar. Məlum olur ki, qanları bahasına aldıqları ərazini düşmən yenidən ələ keçirib. Bölük çətin vəziyyətə düşür. O.Güləliyevin dəstəsi mühasirəni yararaq Avazdar yüksəkliyinə qalxıb oradan da Hocaz kəndinə dönür. Elə bu vaxt yenidən mühasirəyə alınırlar. Oqtay vəziyyətin ağır olduğunu görüb yoldaşlarını təhlükəsiz yerə keçirmək üçün ermənilərlə təkbaşına döyüşə girir. O, döyüş yoldaşlarını xilas edir, özü isə qəhrəmancasına şəhid olur. Oqtay Güləliyev Bakı şəhərində, Şəhidlər xiyabanında dəfn edilmişdir. İki övladı yadigar qalıb. Laçın şəhərində və Piçənis kəndində orta məktəblər Milli Qəhrəmanın adını daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 11 may 1993-cü il tarixli Fərmanı ilə ölümündən sonra Güləliyev Oqtay Güləli oğluna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

2020-ci ilin 27 sentyabrı Azərbaycan xalqının yaddaşında uzun illər Qələbənin, Zəfərin başlanğıc tarixi kimi xatırlanacaq. Məhz həmin gün başlayan haqq savaşımız bizi sonda böyük Qələbəyə apardı. Vətən torpaqlarının azad olunması uğrunda gedən bu döyüşlərdə Azərbaycan ordusu az itki ilə böyük uğurlara imza atdı.

Oqtayın vaxtilə vuruşub şəhid olduğu Laçın rayonu 2020-ci il dekabrın 1-də erməni işğalından azad olundu. Düşmənin işğal etdiyi torpaqları azad edən qəhrəman əsgərlərimiz Şanlı Bayrağımızı yüzlərlə kənd və digər yaşayış məntəqələrimizə sancdı.

**M.MİRZƏ,**
**"Respublika".**